# Korporativ Sosial Məsuliyyət Komitəsinin
# İllik Hesabatı

**BAKI 2018**

**MÜNDƏRİCAT**

Giriş

1. Uzunmüddətli layihələr....................................................................................................4
2. Qısamüddətli layihələr.......................................................................................................5
3. Tədbirlər və təşəbbüslər......................................................................................................5
4. İşlə təmin etmə və maddi yardım........................................................................................5

# GİRİŞ

Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Cəmiyyət əlvan filiz yataqlarının öyrənilməsi, kəşfiyyatı, işlənilməsi və idarə olunması fəaliyyətinin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və icmalara, habelə onların ayrılmaz hüquqlarına göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır və bu təsirin ədalətli şəkildə tənzimlənməsi Cəmiyyətin Korporativ Sosial Məsuliyyət siyasəti çərçivəsində həyata keçirilir.

"AzerGold" QSC-nin korporativ sosial məsuliyyət siyasəti milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə, "Layihələrin maliyyələşdirilməsi zamanı ekoloji və sosial risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və idarəçiliyi üzrə Ekvator Prinsipləri", "BMT-nin biznes və insan hüquqları üzrə Rəhbər Prinsipləri"nin tələbləri nəzərə alınmaqla formalaşdırılır və davamlı olaraq təkmilləşdirilir.

Cəmiyyətin sosial məsuliyyət siyasəti əsasən aşağıdakı dörd prioritet istiqamətləri əhatə edir:

- Yerli əhali və icmalarla iş
- Ətraf mühitin mühafizəsi
- Əlverişli əmək şəraitinin formalaşdırılması və iş yerində insan hüquqlarının müdafiəsi

Cəmiyyətin Korporativ Sosial Məsuliyyət siyasəti Cəmiyyətin nəzdində 2017-ci ilin oktyabrından etibarən fəaliyyətə başlamış Korporativ Sosial Məsuliyyət Komitəsi tərəfindən formalaşdırılır və icra edilir. Komitə kollegial orqandır və dövri olaraq fəaliyyəti barədə hesabatlar dərc edir.

# 1. UZUNMÜDDƏTLİ LAYİHƏLƏR

## 1.1. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı Təqaüd Proqramı layihəsi

Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci il Azərbaycan Xalq Cümhuriyyəti ili elan olunmuşdur. Cəmiyyətin Korporativ Sosial Məsuliyyət Komitəsi ölkədə elmin inkişafına və respublikaçılıq ənənələrinin araşdırılmasına dəstək vermək məqsədilə cari ilin iyul ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Təqaüd Proqramı təsis etmişdir. Proqramın tələblərinə əsasən tarixşünaslıq (və ya əlaqəli sahələr) üzrə ali təhsilə malik olan şəxslər tərəfindən AXC tarixi üzrə az araşdırılmış mövzular üzrə tədqiqat təklifləri Komitə tərəfindən müsabiqəyə qəbul edilib. Təkliflər tarixçi alimlərdən təşkil edilmiş münsiflər heyəti tərəfindən akademik və müsabiqə tələbləri nəzərə alınmaqla qiymətləndirilib. Qalib seçilmiş 3 (üç) tədqiqat təklifinin müəllifləri ilə tarixi tədqiqat aparılması üzrə müqavilələr bağlanılıb. Qeyd edək ki, proqram çərçivəsində 3 (üç) qalib tədqiqatçının hər biri üçün 2000 (iki min) AZN dəyərində təqaüd nəzərdə tutulub. 27 dekabr 2018-ci ildə proqram üzrə tədqiqatçılar və Münsiflər heyətinin iştirakı ilə yekun görüş keçirilib. Sosial Məsuliyyət Komitəsinə təqdim edilmiş və münsiflər heyətinin müsbət rəyini almış tədqiqat işlərinin 2019-cu ilin birinci yarısında yerli və xarici mətbuatda dərc etdirilməsi planlaşdırılır.




Əsas məqsədi ölkədə sosial elmlərin və gənc alimlərin, tədqiqatçıların inkişafına dəstək olan proqramın Komitə tərəfindən dövri olaraq hər il həyata keçirilməsi planlaşdırılır.

# 2. QISAMÜDDƏTLİ LAYİHƏLƏR

## 2.1. Kiçik və orta aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası üzrə təlim layihəsi

Azərbaycan iqlim dəyişikliyinin sürətlənməsinə səbəb olan qazların emissiyasına görə əhəmiyyətli təsirə malik olmasa da, iqlim dəyişikliyinin doğurduğu mənfi təsirlərə qarşı həssas olan ölkələr qrupuna daxildir. Şirin su ehtiyatlarının azlığı, ölkənin müəyyən hissəsinin sahilyanı ərazilərdə yerləşməsi və nəhayət ölkədə güclü aqrar təsərrüfat ənənələrinin olması, habelə böyük aqrar sənaye potensialı, Azərbaycanı iqlim dəyişikliyinin nəticələrinə qarşı preventiv tədbirlər almağa və bu istiqamətdə müvafiq siyasət formalaşdırmağa sövq edir. Təklif edilən layihə ilə Azərbaycan Respublikasının iqlim dəyişikliyinə həssas, həmçinin əkinçilik ənənələrinin daha yaxşı inkişaf etdiyi zonalarında, yəni Gəncə-Qazax, Aran və Lənkəran iqtisadi rayonlarından 40

nəfərə yaxın kiçik və orta aqrar təsərrüfat sahiblərinin iqlim dəyişikliyinə adaptasiya edilmə üzrə müasir *elmi, hüquqi* və *iqtisadi metodlar* barədə məlumatlandırılması məqsədilə Bakıda 4 (dörd) günlük xüsusi təlimə cəlb edilməsi nəzərdə tutulmuşdur. Cari il ərzində qeyd edilən layihə ilə bağlı aşağıdakı işlər icra edilmişdir:

- Əsas hədəf regionlarından olan sahibkarla görüşlər keçirilmiş, təkliflər və qeydlər icmallaşdırılmışdır;
- Təlimin ilkin gündəliyi hazırlanmışdır;
- Təlimin ilkin büdcəsi formalaşdırılmışdır.

Hal-hazırda təlimə hazırlıq işlərinin icrasına başlanılmışdır. Təlimin 2019-cu ilin fevral-mart aylarında baş tutması planlaşdırılır. Layihə Heydər Əliyev Fondunun tərəfdaşlığı ilə həyata keçirilir.

## 3. TƏDBİRLƏR VƏ TƏŞƏBBÜSLƏR

2018-ci il aprel ayında Komitə tərəfindən Daşkəsən rayonunun Çovdar kəndində yerləşən Kəlbəcər rayon 70 saylı tam orta məktəbinin müəllim və şagird heyəti ilə görüş keçirilmişdir. Görüş zamanı məktəb kitabxanasına kompüterlər, fasiləsiz internet xətti və digər ləvazimatlar hədiyyə edilmişdir. Sosial tədbirin fiziki qüsurlu uşaqlar da daxil olmaqla 50-yə yaxın şagirdin təhsil aldığı məktəbdə keçirilməsində əsas məqsəd coğrafi cəhətdən ölkənin ucqar nöqtələrində yaşayan uşaqlara əlavə təhsil və fərdi inkişaf üzrə bərabər imkanlar yaratmaq olmuşdur.

2018-ci ilin sentyabr ayında Komitə Çovdar Filiz Sahəsindən toplanılmış ot bağlamalarını əvəssiz olaraq aztəminatlı qrupa daxil olan 100-ə yaxın yerli maldara paylanılmasını həyata keçirmişdir.

2018-ci il ərzində mütəmadi olaraq Daşkəsən rayonunda ağacəkmə tədbirləri həyata keçirilmişdir. Belə ki, il ərzində 7 (yeddi) minə yaxıb ağac və kol bitkiləri əkilmişdir.

2018-ci il ərzində mütəmadi olaraq yerli əhali ilə görüşlər və ictimai dinləmələr keçirilmişdir.

## 5. İŞLƏ TƏMİN ETMƏ VƏ MADDİ YARDIM

Komitəyə il ərzində daxil olmuş müraciətlər əsasən işə düzəlmə və maddi yardım sorğuları ilə əlaqədar olmuşdur. 2018-ci il ərazində Komitəyə işə düzəlmə ilə bağlı 30 sorğu daxil olmuşdur. Bu müraciətlərdən 7 nəfərin sorğusu təmin edilmişdir. Cəmiyyətdə işlə təmin olunma sorğuları icraya yönəldilərkən, sorğu sahiblərinin sosial həssas qrupa daxil olması və bilavasitə mədən fəaliyyətinin həyata keçirildiyi regionlarda məskunlaşması faktorları əsas kriteriya olaraq qəbul edilmişdir.

Komitəyə cari il ərzində müxtəlif sosial həssas qruplara daxil olan şəxslərdən maddi yardımla əlaqəli sorğular daxil olmuşdur. Bu sorğuların 80%-i müvafiq yoxlama tədbirləri icra edildikdən sonra müsbət dəyərləndirilmiş və müraciətçilərə ölkə üzrə orta aylıq əmək haqqı nəzərə alınmaqla birdəfəlik maddi yardım edilmişdir.